AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ

ƏMR

№ 46

Bakı şəhəri "10" iyun 2017 il

**"Krım-Konqo hemorragik qızdırma xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə"**

Son zamanlar respublikanın həmsərhəd dövlətlərində Krım-Konqo hemorragik qızdırma xəstəliyi ilə bağlı epidemioloji vəziyyət gərginləşib.

Krım-Konqo hemorragik qızdırma xəstəliyi ilə insan orqanizminin yoluxması əsasən gənə dişləməsi və yoluxmuş heyvanların qanı və digər bioloji mayeləri ilə sıx təmas nəticəsində baş verir.

Qeyd olunanları nəzərə alaraq respublikada Krım-Konqo hemorragik qızdırma xəstəliyinə qarşı profilaktik və əksepidemik tədbirlərin gücləndirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə, gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın:

1.1. Krım-Konqo hemorragik qızdırma xəstəliyi barədə tibb işçilərinin məlumatlılığı artırılsın, şübhəli xəstələr dərhal təcrid olunmaqla onlar barədə məlumatın Respublika Taun Əleyhinə Stansiyasına verilməsi təmin edilsin;

1.2. şübhəli xəstələrdən götürülmüş nümunələr Respublika Taun Əleyhinə Stansiyasına çatdırılsın;

1.3. tibb müəssisələrində əksepidemik və dezinfeksiya tədbirləri üzərində nəzarət gücləndirilsin;

1.4. yoluxucu xəstəliklərin profilaktikası barədə əhali arasında maariflendirmə işləri aparılsın.

2. Bakı şəhər Baş Səhiyyə idarəsinin rəisi E.Əliyevaya tapşırılsın ki, Kliniki Tibbi Mərkəzinin yoluxucu şöbəsində və 1nömrəli Uşaq yoluxucu xəstəliklər xəstəxanasında, Krım-Konqo hemorragik qızdırma xəstəliyinə şübhəli xəstələrin hospitallaşdırılması təmin edilsin.

3. Respublika Taun Əleyhinə Stansiyasının direktoru R.Abdullayevə tapşırılsın ki, Krım-Konqo hemorragik qızdırmasının diaqnostikasının təşkil edilməsi üçün tədbirlər görülsün.

4. Respublika Sanitariya-Karantin Müfəttişliyinin rəisi S.Həsənovaya tapşırılsın ki, sərhəd keçid məntəqələrində fəaliyyət göstərən gömrük orqanları ilə əlaqə yaradaraq Krım-Konqo hemorragik qızdırma xəstəliyi yayılmış ölkələrdən gələn insanlar üzərində tibbi müşahidənin təmin edilməsi üçün tədbirlər görülsün.

5. İnnovasiya və Təchizat Mərkəzinin direktoru N.Həsənova tapşırılsın ki, Krım-Konqo hemorragik qızdırma xəstəliyinin laborator diaqnostikası, profilaktikası və müalicəsi üçün tələb olunan preparatların ehtiyatı yaradılsın.

6. Mətbuat katibi L.Bayramovaya və Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri V.Qasımova tapşırılsın ki, Krım-Konqo hemorragik qızdırma xəstəliyi barədə operativ məlumatların Səhiyyə Nazirliyinin saytında yerləşdirilməsi təmin edilsin.

7. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**